# "XXI əsrin müharibəsi"nin qəhrəmanlarının xatirəsi dərin ehtiramla anılıb



**Beş il əvvəl bu gün Azərbaycan xalqı səhəri Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum, yəni "Dəmir yumruq" əməliyyatına başlaması xəbəri ilə açdı.**








Dünya hərb elmində "XXI əsrin müharibəsi" adlandırılan Vətən müharibəsinin ilk günündən son gününə kimi cəbhədən yalnız xoş soraqlar duyuldu.

Azərbaycan xalqı şanlı Vətən müharibəsində 2900-dən çox övladını qurban verdi. Müqəddəs amal uğrunda canından keçən şəhidlərimizin xatirəsinə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir. Sentyabrın 27-də - Anım Günündə minlərlə insanın şəhidlərin uyuduğu müqəddəs məkanlara axını müşahidə olunub. Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşlərdə canlarından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anırlar. Zəfərin baş qəhrəmanlarının ruhlarına dualar oxunub, onlara bir daha minnətdarlıq ifadə olunub.

*AZƏRTAC,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.4.